1_Layout 1 29.01.2014 13:11 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 02 (420)

31 yanvar 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 2014-CÜ İLDƏ DƏ RESPUBLİKAMIZ BÜTÜN SAHƏLƏR ÜZRƏ DİNAMİK İNKİŞAF EDƏCƏK

*2013-cü ildə Avropanın bir sıra ölkələrinin maliyyə böhranından əziyyət çəkdiyi bir vaxtda Azərbaycan iqtisadiyyatı əksinə olaraq, sosial inkişaf səviyyəsini qoruya bilmişdir*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın dəstəyilə prezidentlik fəaliyyətinə başladığı ilk gündən bu ümidi doğrultmaq üçün sosial-iqtisadi, siyasi islahatları uğurla həyata keçirməyə başladı, qanunun aliliyinə, insan haqlarının təmininə mühüm önəm verdi. Burada diqqətçəkən məqam həm də o oldu ki, cənab prezident müasir dünya təcrübəsinə əsaslanaraq, Azərbaycanın sosial-iqtisadi və demokratik islahatlar prosesini paralel şəkildə reallaşdırdı.**

Dövlət başçısı fəaliyyətində əsas götürdüyü bu məqamla bağlı belə deyir: ***“Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq, görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir... O ölkələr dünyada özünə layiq yeri tutar ki, öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın - nə siyasi, nə iqtisadi cəhətdən, nə də ölkələrin ehtiyaclarının ödənilməsi baxımından. Azərbaycan bu ölkələrdəndir”.***

Prezidentin fəaliyyətində diqqəti çəkən mühüm amillərdən biri də qarşıya qoyulan hər bir hədəfin reallaşdırılması üçün konkret fəaliyyət proqramlarının işlənib hazırlanmasıdır. Bu baxımdan Azərbaycan Prezidentinin ölkəmizdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı imzaladığı fərmanların əhəmiyyətini xüsusi qiymətləndirmək lazımdır. Bu çərçivədə atılan ardıcıl addımlar Azərbaycanda işsizlik probleminin aradan qaldırılması, regionların tarazlı inkişafı, qeyri-neft sektoruna diqqətin artırılması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin açılması istiqamətində konkret nəticələrlə müşayiət olunmuşdur.

**Son illər ərzində ictimai həyatın bütün sahələrində hökm sürən inkişaf geniş vüsət aldı.**

2013-cü ildə Avropanın bir sıra ölkələrində maliyyə böhranının doğurduğu çətinliklər özünü qabarıq göstərmiş, büdcə xərcləri azaldılmış, vergilər artırılmış, dövlət və özəl sektorda iş yerlərinin ixtisara salınması geniş vüsət almış, ümumi daxili məhsulun kəskin azalması müşahidə edilmişdir. Bəzi ölkələrdə büdcə kəsiri ümumi daxili məhsulun 10 faizi, dövlət borcu isə onun 100 faizindən yuxarıdır. Azərbaycan iqtisadiyyatı isə qlobal böhrana yüksək dayanıqlıq nümayiş etdirərək müvazinətini itirməmiş, sosial inkişaf səviyyəsini qoruya bilmişdir. Uğurla həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində ölkədəki güclü sabitlik birbaşa olaraq maliyyə sabitliyinin qorunmasına zəmin yaratmışdır.

Azərbaycan dövlətinin ötən illərdən üstünlük verdiyi sosialyönümlü siyasətə sadiqliyi 2014-cü ilin dövlət büdcəsində də öz təsdiqini tapır. Gələn il büdcə xərclərinin strukturunda sosialyönümlü xərclər yenə də prioritet istiqamətlərdən birini təşkil edir. Dünya iqtisadiyyatında tənəzzül meyllərinin davam etdiyi, inkişaf etmiş ölkələrdə iqtisadi artımın zəiflədiyi bir dövrdə, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 2013-cü ilin sentyabr ayından dövlət büdcəsindən maliyyələşən təhsil, səhiyyə, sosial təminat, mədəniyyət orqanlarında çalışanların əmək haqları orta hesabla 10 faiz artırılmışdır. Bu artım eyni zamanda güc strukturlarında xidmət edən hərbi qulluqçulara, mülki işçilərə də şamil olunmuşdur. Həmin artımların maliyyə təminatı 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulub. Tətbiq olunmuş artımlar təxminən 3 milyona yaxın əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına zəmin yaradacaq. Sosialyönümlü xərclərin məbləği 5 milyard 337 milyon manat təşkil edir ki, bu da 2013-cü ilə nisbətdə 5,9 faiz artım deməkdir.

2014-cü ilin dövlət büdcəsi deməyə əsas verir ki, növbəti ildə də respublikamız bütün sahələr üzrə dinamik inkişaf edəcək.

Bütün bunlar Prezident İlham Əliyevin verdiyi vədlərin əməli işdə gerçəkləşdiyini birmənalı təsdiqləyir.

Respublika prezidenti cənab İlham Əliyevin yeritdiyi düşünülmüş siyasət yaxın gələcəkdə Dağlıq Qarabağın geri qaytarılacağına inamı günü-gündən artırır. Ermənistan, necə deyərlər, küncə sıxışdırılıb, beynəlxalq aləmdə nüfuzu olmayan bir ölkəyə çevrilib. Artıq Ermənistan iqtisadiyyatı çökmək üzrədir, ölkə kənardan gələn yardımlar hesabına yaşayır. Azərbaycanın isə iqtisadiyyatı ilə yanaşı, hərbi potensialı da getdikcə güclənir. Bunu faktlar da göstərir. Son on ildə hərbi büdcəmiz 20 dəfədən çox artıb, güclü hərbi sənaye kompleksi yaradılıb. Bütün bu deyilənlər Azərbaycan Ordusunun bu gün dünya miqyasında güclü ordular sırasında olmasından xəbər verir. Bu, eyni zamanda, xalqımızda qeyd etdiyim kimi, işğal altında qalan torpaqlarımızın tezliklə düşməndən azad olunmasına əminliyi artırır.

Cənab prezidentin andiçmə mərasimində dediyi sözlər bu qənaəti daha da möhkəmləndirir: ***“Əminəm ki, bu amillər, diplomatik səylər və ümid edirəm ki, böyük dövlətlərin bu məsələyə münasibəti problemin həllinə gətirib çıxaracaqdır. Bir daha demək istəyirəm, məndə zərrə qədər şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Məsələ ondadır ki, biz bunu tezliklə həll etmək istəyirik. Əlbəttə ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri üzərində öz həllini tapmalıdır”.***

Bir sözlə, müstəqil Azərbaycanın hər bir vətəndaşı əmindir ki, növbəti illərdə də Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz ictimai-siyasi həyatın bütün sahələrində davamlı uğurlara imza atacaqdır.

**mayor R.Sarıyev**

# DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI GENERAL-MAYOR ŞAHİN MƏMMƏDOV 17074 SAYLI HƏRBİ HİSSƏDƏ OLMUŞDUR



***Yanvarın 17-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov 2014-cü ildə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlığın vəziyyətinin yoxlanılması məqsədilə Daxili Qoşunların Zaqatala rayonunda yerləşən 17074 saylı hərbi hissəsində olmuşdur.***

Daxili Qoşunların Komandanı hərbi hissəyə ümumi baxış keçirmiş, şəxsi heyətin sosial-məişət şəraiti ilə maraqlanmış, xidməti-döyüş fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Hərbi hissədə xüsusi-taktiki təlim nümayiş etdirilmişdir.

Sonra xidməti müşavirə keçirilmişdir. Müşavirədə çıxış edən general-mayor Ş.Məmmədov xüsusi olaraq vurğulamışdır ki, Silahlı Qüvvələrdə, o cümlədən Daxili Qoşunlarda yaradılmış hərtərəfli şərait Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin şəxsi heyətə göstərdiyi diqqət və qayğının tərkib hissəsidir.

Daxili Qoşunların Komandanı əlavə etmişdir ki, son illər Daxili Qoşunların kadr potensialının gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika və avadanlıqlarla təchiz olunması, yeni hərbi şəhərciklərin yaradılması, hərtərəfli şəraitə malik xidməti mənzillərin istifadəyə verilməsi və s. istiqamətlərdə çox işlər görülmüşdür.

Daxili Qoşunların Komandanı general-mayor Ş.Məmmədov qeyd etmişdir ki, Daxili Qoşunların şəxsi heyəti Azərbaycan Respublikasının qanunlarından, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından, eləcə də Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, öz andına sadiq qalaraq, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə sabitliyin, əmin-amanlığın keşiyində mətinliklə dayanacaqdır.

Daha sonra general-mayor Ş.Məmmədov hərbi hissənin xidməti-döyüş fəaliyyətinin daha da yüksəldilməsi istiqamətində müvafiq tapşırıq və tövsiyələrini vermişdir.



General-mayor Ş.Məmmədov şimal-qərb bölgəsinə səfəri çərçivəsində 17074 saylı hərbi hissənin Şəki şəhərində yerləşən taborunda olmuşdur.

Daxili Qoşunların Komandanı burada da şəxsi heyətin sosial-məişət şəraiti ilə maraqlanmış, xidməti-döyüş fəaliyyəti ilə yaxından tanış olmuşdur.

General-mayor Ş.Məmmədov regiona səfəri çərçivəsində əsgər valideynlərini qəbul edərək onların müraciətlərini dinləmişdir.

Görüş zamanı əsgər valideynləri hərbi hissədə övladları üçün yaradılmış hərtərəfli şəraitə görə ölkə və DİN rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər. Ordu quruculuğu sahəsində sözün əsl mənasında məqsədyönlü islahatların həyata keçirildiyini nəzərə çatdıran əsgər valideynləri vurğulamışlar ki, hər dəfə hərbi hissədə olarkən bir daha bunun şahidi olurlar.

General-mayor Ş.Məmmədov öz növbəsində qeyd etmişdir ki, hərbi qulluqçular, o cümlədən əsgərlər üçün yaradılmış hərtərəfli şərait Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən şəxsi heyətə göstərilən diqqət və qayğının nəticəsidir.

Sonra əsgər valideynlərinin qaldırdığı məsələlərin yerindəcə həll olunması, həmçinin icrasının nəzarətdə saxlanılması barədə hərbi hissə komandirinə konkret göstərişlər verilmişdir.

*Məlumat üçün bildirək ki, general-mayor Ş.Məmmədov Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı vəzifəsinə təyin olunduqdan sonra regionlara səfərinə ilk olaraq Zaqatalada yerləşən hərbi hissədən başlamışdır.*

*Ötən müddət ərzində general-mayor Ş.Məmmədov Daxili Qoşunların Bakı şəhərində yerləşən bütün hərbi hissələrinin xidməti-döyüş fəaliyyəti ilə yaxından tanış olmuş və müvafiq məsələlərin həlli istiqamətində konkret tapşırıqlarını vermişdir.*

**Mətbuat xidməti**

2_Layout 1 29.01.2014 13:15 Page 1



# JANDARM BAŞ KOMANDANLIĞININ NÜMAYƏNDƏ HEYƏTİNİN DAXİLİ QOŞUNLARA RƏSMİ SƏFƏRİ



**Yanvarın 19-dan 24-dək Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Baş Kadrlar və Planlaşdırma - prinsiplər İdarələrinin zabitlərindən ibarət nümayəndə heyəti Daxili Qoşunlarda rəsmi səfərdə olmuşdur.**

Səfər Jandarm Qüvvələri ilə Daxili Qoşunlar arasında kadr məsələləri üzrə qarşılıqlı təcrübə mübadiləsi çərçivəsində həyata keçirilmişdir.

Yanvarın 21-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində polkovnik Bekir Uzelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan Daxili Qoşunların Komandanı general-mayor Ş.Məmmədov Daxili Qoşunlarla Jandarm Qüvvələri arasında hərbi əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini vurğulamışdır.

O, Türkiyə Silahlı Qüvvələrinin və Jandarm Qüvvələrinin təlim-tədris mərkəzlərində təşkil olunan müvafiq kursların Daxili Qoşunların hərbi qulluqçularının bilik və bacarıqlarının təkmilləşdirilməsində mühüm rol oynadığını qeyd etmişdir.

Polkovnik B.Uzel səmimi və qonaqpərvər qəbul üçün həm öz adından, həm də nümayəndə heyətinin üzvləri adından dərin təşəkkürünü bildirərək, Azərbaycan Respublikasına rəsmi



səfər etməsindən məmnun olduğunu ifadə etmişdir. Azərbaycanın Daxili Qoşunları ilə Türkiyə Respublikası Silahlı Qüvvələri və Jandarm Qüvvələri arasında bu gün doğurdan da sıx əlaqələrin olduğunu bildirən hörmətli qonaq kadr işinin təşkili sahəsində səmərəli təcrübə mübadiləsinin aparılmasına daima lazımi dəstək göstərməyə hazır olduğunu demişdir.

Sonra polkovnik B.Uzelin rəhbərlik etdiyi nümayəndə heyəti DQBİ-nin Şəxsi Heyət üzrə İdarəsində Kadrlar şöbəsinin rəisi-idarə rəisinin müavini polkovnik Nəsir Hüseynovla görüşmüşdür.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Daxili Qoşunlarda kadr işinin təşkilinə dair geniş məzmunlu brifinq nümayiş etdirilmişdir.

Səfər müddətində nümayəndə heyəti 67987 saylı hərbi hissədə və Ali Hərbi Məktəbdə olmuşdur.

Qonaqlar həmçinin Şəhidlər Xiyabanında torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş Vətən oğullarının məzarını ziyarət etmiş və Bakı şəhərinin tarixi-mədəni abidələrini gəzmişlər.

**Mətbuat xidməti**

# NÖVBƏTİ SƏFƏR 16073 SAYLI HƏRBİ HİSSƏYƏ OLDU

***Daxili Qoşunların Komandanı xüsusi-taktiki təlimi izləmiş, məşğələlərin real şəraitə uyğun keçirilməsinin vacibliyini vurğulamışdır***

2014-cü ildə qoyulmuş xidməti döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlığın vəziyyətinin yoxlanılması məqsədi ilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov yanvarın 25-də qoşunların Qubada yerləşən 16073 saylı hərbi hissəsində olmuşdur.

Hərbi hissə komandiri bütün xidmət sahələri üzrə mövcud vəziyyəti məruzə edərək, son illər ərzində hərbi hissənin maddi-texniki bazasının gücləndirildiyini, müasir texnika və avadanlıqlarla təchiz olunduğunu, təlim-tədris prosesinin keyfiyyətlə həyata keçirildiyini bildirmişdir.

Daxili Qoşunların Komandanı hərbi hissədə xidməti-döyüş fəaliyyətinin təşkili və şəxsi heyətin sosial-məişət şəraiti ilə də yaxından tanış olmuşdur.

O, həmçinin hərbi hissənin tibb məntəqəsində olan əsgərlərin səhhəti ilə maraqlanmış, aparılan müalicənin yüksəldilməsi istiqamətində səylərin artırılmasını önə çəkmişdir.

Nəzəri məşğələlərin keçirildiyi sinif otaqlarına, eləcə də əsgər yataqxanalarına da baxılmış, qış mövsümünə uyğun olaraq otaqlarda temperatur



rejiminin ciddi nəzarətə götürülməsi tapşırığı verilmişdir.

Sonra general-mayor Ş.Məmmədov hərbi hissədə xüsusi-taktiki təlimi izləmiş, bu kimi məşğələlərin keyfiyyətlə və real şəraitə uyğun keçirilməsinə diqqətin artırılmasının vacibliyini vurğulamışdır. Hərbi hissənin xidməti-döyüş fəaliyyətinin daha da yüksəldilməsi istiqamətində müvafiq tapşırıq və tövsiyələr hərbi hissə komandanlığının diqqətinə çatdırılmışdır.

Daha sonra əsgər valideynləri ilə görüş keçirilmiş, onların fərdi qaydada müraciətləri dinlənilmişdir. Bir sıra məsələlərin yerindəcə həll olunması üçün müvafiq tapşırıqlar verilmişdir.

**mayor R.Sarıyev**

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov yanvarın 26-da gənc əsgərlərin qəbulu, yerləşdirilməsi və tədris prosesinin vəziyyətini yoxlamaq məqsədilə qoşunların Bakı şəhərində yerləşən 25031 saylı hərbi hissəsində olmuşdur.***

# GƏNC ƏSGƏRLƏRİN QƏBUL QAYDALARI YOXLANILMIŞ, ƏSGƏR VALİDEYNLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Hərbi hissə komandanlığı gənc əsgərlərin mövcud şəraiti, tədris prosesinin təşkili, aparılan fərdi psixoloji söhbətlər, həmçinin sağlamlıq durumları barədə geniş məruzə etmişdir.

Daxili Qoşunların Komandanı gənc əsgərlərin hərbi xidmətə çağırışa qədərki dövrdə ailə vəziyyəti, məşğul olduqları peşə sahələri, eləcə də hazırkı mənəvi-psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsinin zəruriliyini vurğulamışdır.

O, eyni zamanda hərbi hissənin tibb məntəqəsində müalicə olunan gənc əsgərlərlə maraqlanmış, səhhətlərində əsasən mövsümi xəstəliklərin müşahidə olunduğu bir neçə hərbi qulluqçuların daima həkim nəzarətində olması tapşırığını vermişdir.

Sonra ənənəvi olaraq əsgər valideynləri ilə görüş keçirilmiş, onların fərdi qaydada müraciətləri dinlənilmişdir. Əsgər valideynləri övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Daxili Qoşunlar Komandanlığına dərin minnətdarlıqlarını bildirmişlər.

**"Əsgər"**

# MİNNƏTDARLIQ

***Hörmətli redaksiya!***

*Səhhətimlə əlaqədar olaraq bu günlərdə Daxili Qoşunların hərbi hospitalında müalicə olundum. Müalicə olunduğum müddətdə Daxili Qoşunların veteranı olaraq mənə göstərilən diqqət və qayğıdan çox razıyam. Həqiqətən də hərbi hospital müasir tələblərə cavab verən tibb ocağıdır. İldən-ilə burada diqqətəlayiq inkişafın şahidi oluruq. Hərbi həkimlərin və orta tibbi heyətin peşəkarlığı, xeyirxah münasibəti dərin rəğbət hissi doğurur. Xəstələrin müayinə və müalicəsi lazımi səviyyədə təşkil olunur. Hərbi hospitalda daxili rejim qaydalarına ciddi riayət edilir.*

*Mövcud səliqə-sahman, sakitlik, xoş ab-hava da burada müalicə olunanların əhval-ruhiyyəsinə müsbət təsir göstərir və sağlamlığının bərpa olunmasına öz töhfəsini verir. Həmçinin, hərbi hospitalda nəzarət-buraxılış məntəqəsində xidmətin təşkili və aparılmasına, şöbə və bölmələrdə nizam-intizamın qorunub saxlanmasına nəzarət gücləndirilib. Bütün bunlar hərbi hospitalın fəaliyyəti barədə müsbət təəssürat yaradır.*

*Mən "Əsgər" qəzeti vasitəsilə hərbi hospitalın rəhbərliyinə bu cür uğurlu fəaliyyətinə görə təşəkkür edirəm. Müayinə və müalicə olunmağımda zəhməti olan, məndən öz qayğısını əsirgəməyən Terapiya şöbəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Əlican Hacıyevə, həkim-endokrinoloq, tibb xidməti baş leytenantı Pərvanə Mirzəyevaya, Reabilitasiya şöbəsinin rəisi, tibb xidməti mayoru Ceyhun Abuzərova, şöbənin baş tibb bacısı kiçik gizir Təranə Əliyevaya, təsərrüfat bacısı Elmira Tağıyevaya, bufetçi Şəhla Seyidovaya, Cərrahiyyə şöbəsinin rəisi VİE, tibb xidməti mayoru Nəzakət Səmədovaya, cərrah, tibb elmləri namizədi Vüsal Paşayevə, tibb bacısı kiçik çavuş Vəfa Qulamovaya dərin minnətdarlığımı bildirirəm. Hərbi hospitalın bütün fədakar kollektivinə fəaliyyətlərində uğurlar arzulayıram.*

***Murad Mürsəlov,***
***Daxili Qoşunların***
***Veteranlar Şurasının sədri***

# İCTİMAİ-SİYASİ HAZIRLIQ MƏŞĞƏLƏSİNDƏ



***2014 - cü ildəki ilk xidməti ezamiyyətim Şəxsi heyət üzrə İdarənin məqsədli qrupunun tərkibində (polkovnik-leytenant Elçin Məmişov, kapitan Müşfiq Xankişiyev) 17074 saylı hərbi hissəyə oldu. Məqsədim "Əsgər" qəzeti üçün yeni materiallar hazırlamaq idi. Hərbi hissənin bölüklərindən birində keçirilən ictimai-siyasi hazırlıq məşğələsində iştirak etməyi qərara almışdım.***

Planlaşdırdığım kimi, dəstə ilə keçirilən nəzəri məşğələdə iştirak etdim. Etiraf edim ki, şəxsi heyətin mənə yönəlmiş baxışları, keskin diqqətləri bir qədər həyəcanlanmağıma səbəb oldu. Bu da təbiidir, çünki Daxili Qoşunların əsgərinin qarşısında bu hissləri yaşamamaq qeyri-mümkündür. Özümü toplayıb ilk sualımı şəxsi heyətə ünvanladım:

- Azərbaycanın tarixi ərazilərində mövcud olmuş dövlətlərdən hansılarının adlarını çəkə bilərsiniz?

Əsgər Şəhriyar Cəfərov bu sualı özünəməxsus şəkildə cavablandırdı: "Azərbaycanın qədim tarixi var. Manna dövləti hələ eramızdan əvvəl III-II minilliklərdə ilk Azərbaycan dövləti kimi mövcud olmuşdur. Sonra Albaniya, Atrapatena dövlətləri təşəkkül tapıb. Zaman-zaman müxtəlif toponomik dəyişikliklərə məruz qalan dövlətimizin adı bu günümüzə Azərbaycan kimi gəlib çatmışdır".

"Yeni tarixdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hansı illəri əhatə edir? sualına cavab vermək üçün isə əlini birinci qaldıran əsgər Rüstəm Əliyev oldu: "1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti çox qısa - 23 ay ömür sürmüşdü. Bugünkü müstəqil Azərbaycan 1920-ci ilin aprelində süqut etmiş Demokratik Respublikanın varisidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də daima bu tarixi faktları önə çəkirdi".

Məşğələnin gedişi diskussiyaya çevrilmişdir. Daxili Qoşunların keçdiyi şərəfli döyüş yolu, şəhidlərimiz və milli qəhrəmanlarımız barədəki suala bütün əsgərlər cavab verməyə hazır idi. Sevindirici haldır. Onların hər biri bu barədə kifayət qədər məlumatlıdır.

Bəli, bu gün Daxili Qoşunların sıralarında xidmət edən hər bir hərbi qulluqçu mənsub olduğu qoşun birləşməsi haqda geniş və müfəssəl biliyə malik olmalıdır. Bu sualı cavablandıran əsgərlər Elçin Süleymanov və Tural Xəlilov kimi.

Məşğələ vaxtının bitməsinə az qaldığından sonuncu sualımı səsləndirdim: "Əsgər" qəzetində daha çox bəyəndiyiniz, oxuduğunuz rubrika hansıdır?

Cavablar gözlədiyim kimi, maraqlı və müxtəlif oldu. Şəxsi heyət yekdilliklə "Əsgər" qəzetinin hərbi vətənpərvərlik qəzeti olduğunu, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına böyük köməklik göstərdiyini, Silahlı Qüvvələrdə, o cümlədən Daxili Qoşunlarda gedən davamlı inkişaf barədə geniş məlumatlar əldə etdiklərini bildirdilər. Əsgər Aqil Abdullazadə hissə və bölmələr haqqında gedən materialları izlədiyini söylədi. Qeyd etdi ki, onu daha çox maraqlandıran isə xüsusi-taktiki təlimlərlə bağlı dərc edilən məqalələrdir. Aqildən fərqli olaraq Əsgər Mirbağır Həsənov "Maraq dünyası"nı oxuduğunu və bu bölümdə maraq kəsb edən məlumatları əldə etdiyini bildirdi.

Şəxsi heyətin ictimai-siyasi hazırlığının yüksək olması əslində zabit heyətinin savadı və bacarığı ilə dəyərləndirmək olar.

**leytenant T.Əlizadə**



***Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin üzərinə düşən döyüş tapşırıqlarının yerinə yetirilməsində motoatıcı bölmələr mühüm rol oynayır.***

# DÖYÜŞ QABİLİYYƏTİ GÜNÜ-GÜNDƏN YÜKSƏLİR

Motoatıcı bölüyün komandiri kapitan Ayaz Hüseynov bildirdi ki, onların əsas vəzifəsi artilleriya divizionunun atəş dəstəyinin köməyi ilə düşmənin üzərinə yerimək, onların zirehli texnikasını, atəş nöqtələrini, istehkam qurğularını məhv etməkdir. Kapitan A.Hüseynov qeyd etdi ki, bütün bunlar nəzərə alınaraq, zirehli transpartyorlarda quraşdırılmış iri çaplı silahların, o cümlədən təhkim olunmuş silahların şəxsi heyət tərəfindən taktiki-texniki xüsusiyyətlərinin öyrənilməsi daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə mütəmadi olaraq həm nəzəri, həm də praktiki təlim və məşğələlər keçirilir.

Bölük komandiri keçirilən təlimlərdə şəxsi heyətin hər zaman fəallıq göstərdiyini, fərqləndiyini xüsusilə vurğuladı. Bildirdi ki, bu təlimlərin keçirilməsi zamanı şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rauf Əliyevin əməyi danılmazdır. O, təlim öncəsi əsgərlərlə müvafiq mövzuda söhbətlər aparır və daxili intizamın qorunub saxlanılmasında əlindən gələni əsirgəmir.

Belə nəticəyə gəlmək olar ki, ciddi nizam-intizamın hökm sürdüyü bölüklərdə döyüş əzmi, döyüş qabiliyyəti günü-gündən yüksəlir.

**gizir X.Tağıyeva**

3_Layout 1 29.01.2014 13:20 Page 1



# 2 FEVRAL - AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜ

***Artıq neçə ildir ki, fevralın 2-si respublikamızda "Azərbaycan Gəncləri günü" kimi qeyd olunur. Rəsmi statistikaya əsasən, ölkəmizdə əhalinin 31 faizini, yəni, təxminən 2,799 milyon nəfərini gənclər təşkil edir.***

Tarixə nəzər salsaq, görərik ki, MDB məkanında və Şərqi Avropada ilk dəfə olaraq "Gənclər günü" məhz Azərbaycanda qeyd olunmağa başlamışdır. Belə ki, XX əsrin sonlarında Azərbaycanda özünü göstərən gərgin ictimai-siyasi proseslər dövründə fiziki və mənəvi təzyiqlərə məruz qalan, cəmiyyətin laqeydliyi və biganəliyi ilə qarşılaşan sosial qruplardan biri də məhz gənclər idi.

Gənc nəslin tərbiyələndirilməsində konkret istiqamətlər yox idi. Düzdür, həmin vaxtlarda respublikada müxtəlif gənclər təşkilatı yaradılmışdı. Lakin təəssüflə qeyd etməliyik ki, bu təşkilatlar gənclərin mənəvi-estetik tərbiyəsinin formalaşdırılmasında, onların sosial qayğılarının həll edilməsində rol oynaya bilməmişdir. Onların əksəriyyəti əsasən tələbələri və qismən də müharibə iştirakçılarını əhatə edirdi. Gənclərin digər kateqoriyaları həmin qurumlardan kənarda qalmışdı. Bir qrup təşkilatlar isə siyasi qurumlarla birləşərək müəyyən mənada respublikada daxili sabitliyin pozulmasına cəlb olunurdu.

Bu çatışmazlıqların aradan qaldırılmasında, gənc nəslin əsl vətəndaş kimi tərbiyə olunmasında, onların bir qüvvə kimi cəmləşdirilməsində və dövlət gənclər siyasətinin formalaşdırılmasında yenə də xalqımızın ulu öndəri Heydər Əliyev mühüm rol oynadı.

1996-cı il fevral ayının 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin birinci forumunun keçirilməsi haqqında, 1997-ci ilin fevral ayının 1-də isə «2 fevral Azərbaycan Gəncləri günü elan edilməsi haqqında» sərəncam imzaladı. Gənclər və İdman Nazirliyi yaradıldı. Bütün bunlar Azərbaycan gənclərinə göstərilən qayğının və diqqətin təzahürü idi. Yalnız bundan sonra digər MDB və Şərqi Avropa dövlətlərində "gənclər günü" bayram kimi qeyd olunmağa başladı.

Gənclərin 1-ci forumunun keçirilməsi əslində çox mühüm əhəmiyyət kəsb edən bir tarixi hadisə idi. Tədbirdə ulu öndər Heydər Əliyevin nitqi hər bir Azərbaycan gəncinin gələcək fəaliyyəti üçün həyat devizinə çevrildi:

***"Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır".***

Bu gün cəmiyyətdə gənclərin rolu xüsusilə artmağa başlayıb. Demək olar ki, respublikamızın hər sahəsinin inkişafında, onun iqtisadi cəhətdən qüdrətli bir dövlət kimi tanınmasında gənclərimiz aparıcı qüvvədir. İstər elm, təhsil və incəsənətdə, istərsə də digər sahələrdə Azərbaycan gəncləri daim uğurlar qazanırlar. Bu gün Azərbaycan gəncliyi bir sıra beynəlxalq qurumlarda təmsil olunur. Azərbaycanın gənclər təşkilatları beynəlxalq əlaqələrə xüsusi fikir verir. Dünya Türk Gənclər Birliyi, Avropa Gənclər Mərkəzi, 50-yə yaxın təşkilatı özündə birləşdirən Avropa Gənclər Forumu ilə əlaqələrini daha da genişləndirməkdədir.

Təbii ki, bu uğurların davam etdirilməsində, ölkəmizdə gənclər siyasətinin daha da inkişaf etdirilməsi yolunda "Azərbaycan Gəncliyi (2005-2009-cu illər)" Dövlət Proqramı mühüm fəaliyyət sənədi olmuşdur. Həmin Dövlət Proqramının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və müəyyən uğurlar əldə olunmuşdur. Gənclərdə vətənpərvərlik hisslərinin formalaşması sahəsində davamlı işlər aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmiş, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmışdır.

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı isə bu inkişafın 2-ci mərhələsidir. Gənclərin hərtərəfli inkişafı üçün əlverişli şəraitin yaradılması, gənc mütəxəssislərin işlə, gələcəyin tələblərinə cavab verən təhsil almaları üçün bərabər imkanlarla təmin edilməsi, gənclərin, o cümlədən gənc əlillərin sosial müdafiəsinin gücləndirilməsi, onların sosial-iqtisadi problemlərinin həlli və digər mühüm məsələlər Proqramda öz əksini tapmışdır.

***Qeyd edək ki, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrası ilə bağlı Daxili Qoşunlarda da bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Gənc hərbi qulluqçularımızın maarifləndirilməsi, onların hərbi biliklərinin artırılması istiqamətində müvafiq işlər görülmüş və hazırda davam etdirilir. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçularımız, şəhid döyüşçülərimizin göstərdiyi qəhrəmanlıq nümunələri, onların rəşadəti, cəsarəti, Vətən yolunda fədakarlıqla canlarından keçmələri və digər maarifləndirici mövzularda kollektiv söhbətlər aparılır, bu barədə məqalələr hazırlanır, metodiki vəsaitlər dərc olunur, gənclərdə vətənpərvərlik hisslərinin formalaşmasına rol oynayan müxtəlif tədbirlər keçirilir. Gənc nəslin tərbiyəsində ulu öndərin ideyaları əsas götürülür. Çünki bu gün ordu quruculuğu işində gənclərin iştirakı danılmazdır.*** Bu baxımdan Azərbaycan gəncliyinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi qarşıda duran əsas vəzifələrdəndir. Xüsusilə torpaqlarımızın bir hissəsinin işğal altında olduğu bir vaxtda Vətənin müqəddəsliyini, onun hər qarışının dəyərli olmasını bütün gənc hərbi qulluqçular dərindən dərk etməlidir.

Digər tərəfdən, ordunun gücü onun sıralarını təşkil edən gənclərin milli vətənpərvərlik ruhundadır. Vətənpərvərlik bizə ulularımızdan qalan mirasdır. Bu mirasa sahib çıxmaq, onu qoruyub gələcək nəsillərə də çatdırmaq hər bir vətən övladının borcudur.

**gizir X.Tağıyeva**

# GƏNC HƏRBİ QULLUQÇULARIMIZ VƏZİFƏLƏRİNİ MƏSULİYYƏTLƏ YERİNƏ YETİRİRLƏR

**17074 saylı hərbi hissənin komendant bölüyünün komandiri baş leytenant Zamiq Məmmədov həqiqi hərbi xidmətə Daxili Qoşunların 12318 (hazırda 25031-red.) saylı hərbi hissəsində başlayıb.** 2006-cı ildən etibarən Daxili Qoşunların bir sıra hərbi hissələrində, müxtəlif vəzifələrdə xidmət keçib. 2008-2010-cu illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbini bitirdikdən sonra, "leytenant" hərbi rütbəsində qoşunların 16073 saylı hərbi hissəsində əvvəlcə taqım komandiri, daha sonra bölük komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmətini davam etdirmişdir.




2013-cü ildən etibarən 17074 saylı hərbi hissədə xidmət edir.

Bölüyün əsas vəzifələrindən danışan baş leytenant Z.Məmmədov bildirdi ki, komandiri olduğu bölük hərbi hissənin və qorunan obyektlərin mühafizəsini təşkil edir: "Bu baxımdan bölüyün şəxsi heyətinin döyüş fəaliyyətinin və mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılması çox vacibdir. Şəxsi heyətin dözümlülüyünün artırılması üçün idman və fiziki hazırlıq məşğələlərinə xüsusilə önəm verilir".

O, respublikada və qoşunların həyatında baş verən ən mühüm hadisələrin hərbi qulluqçulara çatdırıldığını da sözlərinə əlavə etdi. Söylədi ki, şəxsi heyətə vətənpərvərlik hisslərinin aşılanması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilir. Qarabağ döyüşlərində şəhid olan silahdaşlarımız barədə geniş məlumatlar verilir, döyüş əməliyyatlarında göstərdikləri şücaətdən, rəşadətdən bəhs edilir.

* * * *

**Daxili Qoşunların Ali Hərbi Məktəbinin kursantı Fuad İsmayılov 1986-cı ilin yanvar ayının 6-da Tərtər rayonunda anadan olub.** O, 2003-cü ildə Rafiq Nuriyev adına 6 saylı məktəbi bitirib. Orta təhsilini başa vurduqdan sonra 2004-cü il yanvar ayında hərbi xidmətə çağırılıb.



Həqiqi hərbi xidmətini Ədliyyə Nazirliyinin hərbi hissələrindən birində keçdiyini söyləyən kursant F.İsmayılov onu da bildirdi ki, 2005-ci ilin iyul ayından etibarən müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarındadır:

"2005-ci ildən 2008-ci ilə kimi "baş çavuş" hərbi rütbəsində Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin dəstəsində yarımqrup komandiri vəzifəsində xidmət etmişəm. 2009-cu ilin iyul ayında isə könüllü hərbi vətənpərvərlik texniki idman cəmiyyətində paraşüt kursunu bitirmişəm".

2012-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunan Fuad hazırda II kursda təhsil alır və keçirilən imtahanlarda yüksək nəticələr əldə edir.

Ümumiyyətlə, xidmət etdiyi müddət ərzində kursant F.İsmayılov hər zaman özünü müsbət tərəfdən göstərmiş, nizamlı-intizamı, bilik və bacarığı ilə öz yoldaşlarından fərqlənmişdir. Bunun nəticəsidir ki, o, Daxili Qoşunların Komandanı və hərbi hissə komandiri tərəfindən dəfələrlə mükafatlandırılmışdır.

* * * *



**Müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əkbərov Yadulla hərbi xidmətə 2012-ci ilin noyabr ayında qoşunların 17074 saylı hərbi hissəsində başlayıb.**

Yarımqrup komandiri kimi, möhkəm nizam-intizamın daim diqqət mərkəzində saxlanıldığını bildirən çavuş Y.Əkbərov bunun üçün şəxsi heyətlə müvafiq mövzularda söhbətlər apardığını söylədi: "Tabeçiliyimdə olan hərbi qulluqçulara hər zaman hərbi nizamnamələrin tələblərini, etik davranış və təhlükəsizlik qaydalarını çatdırır və onlara ciddi riayət olunmasına nəzarət edirəm".

Onun sözlərinə görə, təlim və məşğələlərin davamlı olaraq keçirilməsinə daha çox önəm verilir. Əsasən Daxili Qoşunların taktiki hazırlığı istiqamətində keçirilən məşğələlərdə şəxsi heyət peşə vərdişlərini artırır. Yarımqrupun hərbi qulluqçuları təhkim olunmuş silahların taktiki-texniki xüsusiyyətlərini, onların qorunub saxlanılması, daşınma qaydaları və digər xüsusiyyətlərini dərindən bilirlər. Döyüş hazırlığının qorunub saxlanılması, o cümlədən fiziki hazırlığın artırılması məqsədilə hərbi hissənin qrup və yarımqrupları arasında müxtəlif turnirlər keçirilir.

* * * *



**Daxili Qoşunların Şəki şəhərində yerləşən hərbi hissəsinin əsgəri Elnur Zülfüqarov nümunəvi xidməti ilə seçilən hərbi qulluqçulardandır.**

O, 1995-ci ilin sentyabr ayının 3-də Masallı rayonunun Boradigah qəsəbəsində anadan olub. Orta təhsillidir. Məktəbi bitirdikdən sonra 2013-cü ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılıb.

Əsgər E.Zülfüqarov nizam-intizamı ilə yanaşı, istedadı ilə də əsgər yoldaşlarına nümunədir. O, boş vaxtlarında müxtəlif mövzularda əsərlər də yazır. "Sonsuz ümidlər", "Vətən arzusu" adlı kitabları artıq çapdan çıxıb. Amma hələ də çap olunmayan bir neçə kitabı da var. "Sonsuz ümidlər" kitabı bir gəncin həyatından, "Vətən arzusu" isə adından da göründüyü kimi, Vətənə olan sevgidən bəhs edir.

Həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra da bu məşğuliyyətini davam etdirəcəyini düşünür. Deyir ki, əsgərlik həyatını əks etdirən məqamları da qələmə alacaq.

Əsgər E.Zülfüqarovun istedadı bununla da məhdudlaşmır. O, rəssamlığı da bacarır. Həmçinin, boks üzrə keçirilən beynəlxalq turnirdə də iştirak etmiş, 2-ci yeri qazanmışdır.

İstedadlı və bacarıqlı əsgərlərimizlə yalnız fəxr edə bilərik.

* * * *

Təqdim edəcəyimiz növbəti əsgər də sözün həqiqi mənasında digərlərindən fərqlənir desəm, yəqin ki, yanılmaram. **Əsgər Leonard Klautonun atası ingilis, anası isə ukraynalıdır.**




O, 1995-ci il avqust ayının 9-da Bakı şəhərində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 2013-cü ilin oktyabr ayından 17074 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdədir. Qısa müddət keçməsinə baxmayaraq özünü işgüzar, məsuliyyətli, hər bir işin öhdəsindən gələn bacarıqlı əsgər kimi tanıdıb.

Komandirləri də onu müsbət xarakterizə edir. Əsgər L.Klauton deyir ki, orta məktəbdə rus bölməsində təhsil aldığı üçün xidmətə yollandığı zaman Azərbaycan dilində yalnız danışmağı bacarırdı. Xidmət etdiyi 3 ay müddətində isə yoldaşlarının köməkliyi ilə dilimizdə yazmağı da öyrənib. O, artıq əsl azərbaycanlı kimi həm oxumağı, həm yazmağı, həm də danışmağı mükəmməl bilir. Bununla yanaşı, Leonard yaxşı rəqs etməyi də bacarır. Bakı xoreoqrafiya məktəbində milli rəqs, balet, modern balet üslubunda peşəkar incəsənət xadimlərindən dərs alsa da, bildirir ki, bu rəqslər içərisində milli üslubda olanları daha çox sevir və xidmətini başa vurduqdan sonra da sənətini davam etdirəcək.

İstedadlı əsgərimizə seçdiyi yolda müvəffəqiyyətlər arzulayırıq.

**leytenant T.Əlizadə,**
**gizir X.Tağıyeva**

# XALQA MƏHƏBBƏT, DÖVLƏTƏ SƏDAQƏT!



***Ötən saylarımızda 17074 saylı hərbi hissənin bir neçə bölmə və xidmətlərinin fəaliyyətləri barədə ətraflı məlumat vermişik. Bu dəfə qısa da olsa, Əməliyyat taborunun gördüyü işləri işıqlandırmaq istərdim.***

Taborun şəxsi heyətinin cəlb olunduğu xidmətlərə gəlincə qeyd edə bilərəm ki, onlar əsasən hərbi hissənin sutkalıq patrul xidmətinin aparılmasını həyata keçirirlər. Bununla yanaşı, şəxsi heyət hissənin digər naryadlarına da cəlb olunur. Xüsusi əməliyyatlar zamanı ərazinin dövrələnməsi, fövqəladə hallar baş verdikdə onların fəsadlarının aradan qaldırılması da bölmənin əsas vəzifələrindəndir.

Şəxsi heyətlə mütəmadi olaraq, müvafiq plana əsasən, təlim məşğələləri keçirilir. Bu məşğələlər onların fiziki hazırlığının, həm də mənəvi-psixoloji durumunun daim yüksək səviyyədə saxlanılmasında mühüm rol oynayır. Praktiki təlimlərdə fəallıq göstərən taborun hərbi qulluqçuları üzərlərinə düşən tapşırıqları layiqincə yerinə yetirirlər.

Bundan başqa, hərbi qulluqçularla həm kollektiv, həm də fərdi qaydada tərbiyəvi söhbətlər aparılır. **Bir sözlə, onlar Vətənə, xalqa məhəbbət, dövlət və dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə olunurlar.**

Leytenant Taleh Rüstəmli, gizir Vasif Ələsgərov, çavuşlar Fuad Nəbiyev, Şakir İsmayılzadə, əsgərlər Göyüş Cəfərov, Sədrəddin Şıxəliyev və Sahib Şükürov şəxsi heyətin təlim-tərbiyəsində xüsusi fəallıqları ilə seçilirlər.

**leytenant T.Əlizadə**

## BİZİM ŞÜAR:

**"MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!"**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

*idmançı hərbi qulluqçularımız*

# "MƏQSƏDİMİZ AZƏRBAYCAN BAYRAĞINI ZİRVƏLƏRƏ QALDIRMAQDIR"

***Hərbi hissənin yüksək döyüş hazırlığına malik olması üçün tələb olunan əsas amillərdən biri də şəxsi heyətin fiziki dözümlülüyü, yəni fiziki hazırlığıdır. Məhz bu baxımdan Daxili Qoşunlarda idmanın inkişafına xüsusi fikir verilir.***

***Şəxsi heyətin fiziki cəhətdən sağlam olması üçün qoşunların hərbi hissələrində lazım olan hər bir şərait yaradılmışdır. Elə bunun nəticəsidir ki, hərbi qulluqçularımız idmanın müxtəlif növləri üzrə respublikada və xarici ölkələrdə keçirilən beynəlxalq turnirlərdə müsbət nəticələr əldə edir, üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırırlar.***

***67987 saylı hərbi hissədə xidmət edən, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizamı, nümunəvi xidməti ilə fərqlənən idmançı hərbi qulluqçularımızdan üçünü - çavuş Surxay İsmayılov, baş əsgərlər Səməd Əliyev və Dəyanət Xudaverdiyevi təqdim edirəm. Onların hər üçü mayor Zəka Əhmədovun komandiri olduğu dəstədə xidmət edir.***







**Çavuş Surxay İsmayılov** 1993-cü il mayın 18-də Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. 2011-ci ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılıb. Müddətli həqiqi hərbi xidmətini qoşunların 67987 saylı hərbi hissəsində keçib. 2013-cü ilin aprelində xidmətini başa vuran Surxay, elə həmin ay müddətdən artıq həqiqi hərbi xidmətə keçərək, Vətənə olan müqəddəs borcunu şərəflə davam etdirməyə başlayıb.

Hələ uşaq yaşlarından idmana böyük maraq göstərən çavuş S.İsmayılov, kinqboks və əlbəyaxa döyüş növlərilə məşğul olub. Dəfələrlə həvəskar idmançı kimi yarışlara qatılıb, rəqiblərini məğlub edib. Son döyüşü isə Bakıda keçirilən Avrasiya klubları arasında beynəlxalq kubok uğrunda olub. Yarışa böyük ruh yüksəkliyi ilə qatılan Surxay həmişəki kimi, bu dəfə də (60 kq. çəki dərəcəsində) 1-ci yerə layiq görülüb.

**Baş əsgər Səməd Əliyev** 1993-cü il avqustun 29-da Ağstafa rayonunun Xılxına kəndində anadan olub. 2011-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılan Səməd Daxili Qoşunların 16073 saylı hərbi hissəsində xidmət edib. 2013-cü ilin aprel ayından isə müddətdən artıq həqiqi hərbi xidmətə keçərək, qoşunların sıralarında xidmətini davam etdirir.

Səməd on altı yaşından idmanın əlbəyaxa döyüş növü ilə məşğul olur. İdman sahəsində bir sıra nailiyyətlər qazanıb. Dəfələrlə respublikada keçirilən yarışların qalibi və mükafatçısı olub.

Onun da sonuncu nailiyyəti 2013-cü ilin dekabrında Bakıda Avrasiya klubları üzrə keçirilən (70 kq. çəki dərəcəsində) beynəlxalq kubok yarışında olub. Baş əsgər S.Əliyev 1-ci yerə layiq görülərək kürsünün ən yüksək pilləsini fəth edib.

**Baş əsgər Dəyanət Xudaverdiyev** 1989-cu il iyulun 28-də Şamaxı rayonunun Quşçu kəndində anadan olub. 2008-ci ilin oktyabr ayından 2010-cu ilin aprelinədək Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının sıralarında həqiqi hərbi xidmətdə olub. 2012-ci ilin iyun ayından isə Dəyanət Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə keçib.

Dəstəmizin idmançı hərbi qulluqçularından olan baş əsgər D.Xudaverdiyev on yaşından idmanın kinq-boks növü ilə məşğul olub. Hazırda kinq-boksla yanaşı, juboksinqlə də məşğul olur. Kinq-boks üzrə isə 1-ci dərəcə, juboksinq üzrə isə 1-ci dan "Qara kəmər" sahibidir. Onun əldə etdiyi nailiyyətlər bununla bitmir. İştirakçısı olduğu bir çox döyüşləri qələbə ilə başa vuran silahdaşımız 2003, 2005, 2006, 2007 və 2010-cu illərdə kinq-boks üzrə keçirilən respublika çempionatlarında yüksək nəticələr göstərərək "Respublika çempionu" adına layiq görülüb. Dəyanət beynəlxalq yarışlarda da nailiyyətlər əldə edib. 2009-ci ildə Bolqarıstanda keçirilən Avropa çempionatında (65 kq. çəki dərəcəsində), eləcə də 2011-ci Bakıda keçirilən Asiya çempionatında (75 kq. çəki dərəcəsində) 1-ci yerə layiq görülüb. Dəyanətin keçirdiyi ən çətin döyüş və əldə etdiyi ən yüksək pillə isə 2012-ci ildə Rusiyanın Sankt-Peterburq şəhərində kinq-boks üzrə keçirilən Dünya Çempionatı olub. Keçirdiyi görüşlərin hər birində ardıcıl qələbələrə imza atan Dəyanət, bu yarışın ən yüksək pilləsinə - "Dünya çempionu" adına layiq görülüb.

***İdmançı silahdaşlarımızın yalnız bir arzusu var: hər dəfə beynəlxalq turnirlərdə Azərbaycanın üçrəngli bayrağını yüksək zirvələrə qaldırmaq!*** Onlara müqəddəs amal uğrunda iştirak edəcəkləri bütün yarışlarda uğurlar arzulayırıq.

**baş leytenant Anar Əhmədov,**
**67987 saylı hərbi hissənin zabiti**

# "OTURAQ İŞ"İN FƏSADLARI

## *Ekspertlər "oturaq iş" sahiblərinə hər gün 4-5 kilometr piyada gəzməyi, mümkün qədər çox hərəkət etməyi tövsiyə edir*

***Bir sıra insanların işləmək üçün can atdıqları və rahat sandıqları "oturaq", başqa sözlə "ofis işləri"nin mənfi fəsadları çoxdur. Oturaq şəraitdə işləyənlər kompüterlə təmasda olduqda isə bu fəsadlar daha da artır, hətta müxtəlif ağır xəstəliklərin yaranmasına səbəb olur.***

Mütəxəssislər hesab edir ki, saatlarla masa arxasında əyləşib işləyən insanlarda hərəkətsizliklə bağlı boyun və bel ağrıları yaranır. Müəyyən vaxtdan sonra bu ağrılar daha da artır və getdikcə dözülməz həddə çatır. Ağrılar beldən ayağa keçdikdə bel yırtığına, boyundan qola və ələ keçdikdə isə boyun yırtığına səbəb olur.

Kompüter arxasında uzun müddət eyni formada oturmaq həmçinin onurğa ətrafındakı əzələlərdə zəifləməyə, qozbelliyə, boyunda düzləşməyə gətirib çıxarır. Şəxsin oturduğu stul anatomik quruluşa uyğun gəlmirsə, bu zaman deformasiyalar da yarana bilir.

Ümumiyyətlə, günün 6 saatından çoxunu oturmaq orqanizmə ciddi ziyan vurur. Nəticədə insanda tez yorulma baş verir, diqqətsizlik yaranır. Bu cür insanlarda əmək qabiliyyəti azalır, əsəbilik, baş ağrıları, yuxusuzluq kimi





hallara tez-tez rast gəlinir.

Oturaq işlərin böyük əksəriyyətinin kompüter arxasında olmasını nəzərə alsaq, bunun gözlərə vurduğu ziyanı düşünmək heç də çətin olmaz.

Belə ki, uzun müddət kompüterlə təmasda olduqda gərginlik nəticəsində kirpikli əzələlər yorulur və gözün daxilində spazm əmələ gəlir. Spazm artıqca gözdə ağrılar baş verir. Bu ağrılar insanda diskomfort yaradır və getdikcə görmə qabiliyyəti aşağı düşür, gözdə "quru göz sindromu" yaranır. Nəticədə gözdə qızarma, yaşarma simptomları əmələ gəlir. Bu təsirləri azaltmaq üçün daxili müdafiə sistemi daha güclü olan kompüterlərdən istifadə etmək lazımdır. Bundan əlavə, oftolmoloqlar məsləhət görür ki, kompüter arxasında olan zaman monitorla ara məsafəsi 50-60 santimetr olmalıdır. Həmçinin hər 20 dəqiqədən bir 5 dəqiqə gəzişmək, gözləri kompüterdən mütləq ayırmaq lazımdır. Bu zaman gözün yorğunluğunu almaq üçün də hərəkətlər edilməlidir. Bununla, gözdə görmə qabiliyyətinin pozulmasının qarşısını almaq mümkündür.

İnsan kompüter otağında uzun müddət işləyirsə və otaqda ventilyasiya sistemi yoxdursa, bu ürək-damar sisteminin fəaliyyətinin pozulması ilə nəticələnə bilər. Kompüter həm də barmağın ucunun dərisinin yeyilməsi təhlükəsini də yaradır.

"Oturaq iş"in mənfi fəsadlarından biri də aşağı ətraflarda daimi durğunluq nəticəsində venalarda qanın hərəkətinin çətinləşməsi, nəticədə varikoz genişlənmələrin və digər patoloji damar xəstəliklərin yaranmasıdır.

Avstraliyalı alimlərin son araşdırmaları onu da göstərib ki, ardıcıl olaraq 10 il oturaq həyat tərzi sürən insanlarda yoğun və düz bağırsaq xərçənginin yaranma riski xeyli yüksəkdir. Bu növ xərçəngin əmələ gəlməsinin riski aktiv həyat tərzi sürən insanlarla müqayisədə 2 dəfə artıqdır. Mütəxəssislər bildirir ki, belə insanların xərçəngdən qorunmasına hətta fitnes də kömək etmir. Hər gün 8 saat "oturaq iş"lə məşğul olmaq istənilən halda bu xəstəliyə tutulma riskini artırır.

Araşdırmalar zamanı o da məlum olub ki, yalnız Britaniyada hər il "oturaq iş"lə məşğul olan insanların 40 mini xərçəng xəstəliyinə tutulur, onlardan 16 mini isə dünyasını dəyişir.

Göründüyü kimi, çoxlarının arzusu olan "ofis işləri" əslində insan orqanizminin ən qatı düşmənidir. Ekspertlər "oturaq iş"də işləyən insanlara hər gün 4-5 kilometr piyada gəzməyi, mümkün qədər çox hərəkət etməyi, sağlam qidalanmağı, işdən sonra və istirahət günlərində idmanla məşğul olmağı, işdən sonra isə kompüter, televizor, informasiyadan uzaq olmağı məsləhət görürlər.

**Hazırladı: gizir X.Tağıyeva**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti polkovnik Zəfər Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti mayor Elbrus Vəliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti mayor Adil Rzayevə **qayınanasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti kiçik çavuş Hüseyn Göyüşova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti kiçik çavuş Mirdamət Hüseynova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sadiq Qubadzadəyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti kiçik çavuş Elşən Müseyibova **əmisinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: mayor R.Sarıyev**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63, 560-12-21**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**